# XOCALI

## (poema)

***Daş körpənin dilindən***

**Proloq**

Ya Qarabağ, ya ölüm-
Başqa yolu yox artıq!
Deyəsən unutmuşuq-
Qan quruyubdu artıq?
* * *
Vətən dediyin bu yer,
Yaddan çıxıbsa əgər.
Soruşuram cavab ver
Namus satılıb məgər?
Budurmu Vətən bağı
Budurmu qeyrət dağı
Alçaldımı sərt dağlar,
Hardadır nər oğullar?
* * *
Haray, yenə də haray
Cihad, savaşdır artıq!
Qanlı qış gecəsindən
Nələr vaxt keçir artıq?!..

***I hissə***

**YAŞAMAQ İSTƏYİRƏM**

Bu haray sönən deyil,
Körpələr harayıdır!
Məni təkcə sizlər yox,
Dünya anlamalıdır!

Oyat məni, ey Günəş,
Göz yaşı istəmirəm!
Yağıya ölüm gərək,
Əfv, barış istəmirəm!
Nifrətimlə yenidən,
Dartışmaq istəmirəm!
Analara göz yaşı,
Dərd olmaq istəmirəm!
* * *
Körpələr güllələnən,
Bir dünya istəmirəm.
Qanla birgə rənglənən,
Mən güllə istəmirəm!
Göstər dünya tanısın,
Bu vəhşi toxumları.
Üzdə dövlət sayılan,
Ekiz -"xaç"qohumları.
"Asala","Krunk"kimi,
Terrorçu bandaları.
Əgər dünya susursa,
Bir baxış istəyirəm!
Müharibə ya torpaq,
Bil, zəfər istəyirəm!
Kürsüdən bağırmağa,
Mən yarış istəmirəm!
* * *
Yenidən doğulmağa,
Yoxdur daha taqətim.
Didəm qanlı da olsa,
Budu hal vəziyyətim.
Dünya susursa əgər,
Kimə gərək niyyətim?




Qisas alın, baş kəsin,
Qana-qan istəyirəm!
İstər şəhadət versin,
Canlı can istəmirəm!
* * *
Əsir düşən bir uşaq,
Bir körpə istəmirəm.
Yaşamaq istəyirəm!
Yaşamaq istəyirəm!..

**II hissə**

Mən bir uşaq doğuldum,
Yaşamağa cahanda.
Tam haqqımla vətəndaş,
Xocalı torpağında.
Qəsd olundu yurduma,
Gecənin son çağında.
Şaxtalı, don, amansız,
Soyuq, qarda, boranda,
Dondum, heykələ döndüm,
Bir ana qucağında.
Bilmədim, sevgi nədir,
Bilmədim, həyat nədir.
Bölmədim sevincimi,
Bildirmədim dərd nədir?
Bilmədim ölmək üçün,
Günahlarım bəs nədir?
Şaxtalı, don, amansız,
Soyuq, qarda, boranda,
Dondum, heykələ döndüm,
Bir ana qucağında.
Mənim yaşda günahsız,
Körpələr nə qədərdir?
Qoy duysun bəşəriyyət,
Bəlkə yüz minlərcədir.
Bu quduzluq, soyqırım,
Qan dünyaya ləkədir.
Şaxtalı, don, amansız,
Soyuq, qarda, boranda,
Dondum, heykələ döndüm,
Bir ana qucağında.

Qoca, qadın, ya körpə,
Heç kimə baxmadılar.
Qışqıran hər bir kəsin,
Başından vururdular.
Məni möhkəm vurdular,
Yəqin ölmüş sandılar.
Şaxtalı, don, amansız,
Soyuq, qarda, boranda,
Dondum, heykələ döndüm,
Bir ana qucağında.

Qızdır məni, ey Günəş,
Mən bəşər övladıyam.
Ananın qucağında,
Donmuş buz parçasıyam.
Bir daş olsam da belə,
Ruhum bilir hardayam.
Şaxtalı, don, amansız,
Soyuq, qarda, boranda,
Dondum, heykələ döndüm,
Bir ana qucağında...

**Epiloq**

Hər il gəlib keçirik,
Heykəlinin önündən.
Sənə baxa bilmirik,
Gizlənirik gözündən.
Dünyaya göstəririk,
Guya səni anırıq.
Əslində belə deyil,
Xəcalətli qalırıq.
Tez bu qisas alınsa-
Sevincimi bölərdim.
Hayların göz yaşını
Dizlərimlə silərdim.
Bilmirəm nə istəyir,
İblis yenə vur deyir.
İnsanlıq sülhü sevir,
Hami bizə dur deyir.
* * *
Ey çırpınan canlı daş,
Kaş bitəydi bu savaş!
Dönəydi yurd yerinə
İnsanlar yavaş-yavaş!..



Bədirxanlı, Ədalət.
*23-25.02.2016*

Kredo 2020.- 26 fevral.- S.12.